# Mənalı yazıçı ömrü

*Yazıçı Heydər Qasımlı ədəbiyyata 60-cı illərdə gəlib. İlk mətbu əsəri «Ata kölgəsi» 1964-cü ildə «Azərbaycan gəncləri» qəzetində dərc edilmişdir. Ədəbi ictimaiyyətin marağına səbəb olan bu əsərdən sonra H.Qasımlı bir-birindən məzmunlu və maraqlı hekayələr, novellalar, povestlər, romanlar, pyeslər yazmışlar.*

Heydər Qasımlının «Qızdərəyə gedən yol», «Çörək ətri», «Ata kölgəsi», «Kibrit qutusu», «Axtaran tapar», «Nəfsin bəlası», «Qarasaqqal» və s. kitabları nəşr olunmuşdur. Yazıçı «Gümüş kəmər», «Qisas» romanlarını, «Gülnarə», «Yurd yeri», «Sarı ürgə», «Tənha çinar», «Nəfsin bəlası» povestlərini Azərbaycan ədəbiyyatına bəxş etmişdir.

Heydər Qasımlı onlarca dram əsərinin müəllifidir. Aşıq Alının 180 illiyinə həsr etdyi «Eldən – obadan soruş» radio-pyesi respublika radiosuyla səsləndirilmişdir. Bir pərdəli pyeslərin toplusu olan «Axtaran tapar» və dörd pərdəli «Kibrit qutusu» pyesi kitab şəklində çap edilmişdir.

Heydər Qasımlı zəhmətkeş və məhsuldar qələm sahibidir. Öz maraqlı əsərləri ilə oxucuların hörmət və məhəbbətini qazanmışdır. Yazıçı-dramaturq Heydər Qasımlının Azərbaycan nəsrində öz dəst-xətti, üslubu, zəngin yaradıcılıq təcrübəsi vardır. Dili sadə və təbiidir, xalqın başa düşdüyü dildə yazır. Həyat hadisələrini vaxtında, düzgün qiymətləndirməyi bacarır. O zəngin məlumatlı, daim axtarışda olan yazıçıdır.

Heydər Qasımlı yazıçı və insan kimi çox mənalı və şərəfli ömür yolu, yaradıcılıq yolu keçmişdir. Kitabdan-kitaba, əsərdən-əsərə püxtələşmiş və kamilləşmişdir.

Heydər Qasımlı Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirmişdir. Müxtəlif illərdə Qazax rayon radio verilişləri redaksiyasında redaktor, rayon mədəniyyət şöbəsində metodist, rayon mədəniyyət evinin direktoru, Qazax Dövlət Dram Teatrının direktoru vəzifəsində işləmişdir. Ona göstərilən etimadı həmişə layiqincə doğrultmağa çalışmışdır. Heydər Qasımlı yüksək mədəniyyətli ziyalı və ictimaiyyətçi kimi rayonun ictimai-siyasi həyatında yaxından iştirak edir.

Heydər Qasımlı istedadlı yazıçı-dramaturq olmaqla yanaşı, həm də təcrübəli jurnalist, kəskin qələmli publisistdir. Uzun illərdir ki, Qazaxda çıxan «Göyəzən» rayon qəzetinin baş redaktorudur.

Azərbaycan Jurnalistlər və Yazıçılar Birliklərinin üzvüdür. «Araz», Ali Ədəbi və «Nurlu qələm ustası» mükafatlarına layiq görülmüşdür.

Bir məsələni də hörmətli oxucularımızın nəzərinə çatdırmaq istəyirəm ki, xalq yazıçısı, rəhmətlik İsmayıl Şıxlı Heydər müəllimin yaxın qohumudur. İsmayıl Şıxlı şəxsiyyətindən, bütövlüyündən, qüdrətindən, qeyrətindən, əzəmətindən bəhrələnən Heydər Qasımlının hər bir əsəri mənalı və məzmunlu, dadlı və duzlu, kəskin və kəsərli, səmimi və gözəl, oxunaqlı və yaddaqalandır.

Azərbaycan ədəbiyyat xəzinəsinə «Dəli Kür» kimi sanballı və dəyərli bir əsər bəxş etmiş İsmayıl Şıxlı ədəbiyyatımızda kişilik mücəssəməsi sayılan Cahandar ağa obrazını yaratmışdır. İ.Şıxlı ədəbiyyatımızın həm də Cahandar ağasıdır.

Ədəbiyyatımızda İ.Şıxlıdan sonra Cahandar ağa kimi kişilik obrazını yaradanlardan biri də məhz Heydər Qasımlıdır. Yazıçının son illərdə yazdığı əsərlərdən biri «Qanlı papaq» tarixi romandır. Vaxtı ilə romandan bir neçə parça mətbuatda dərc olunmuşdur. Bütün çoxsaylı oxucular kimi mən də bu romanın bütövlükdə kitab halında çıxmasını səbirsizliklə gözləyirdim. Allaha şükür ki, bu günü gördüm, romanı bir daha oxumaq qismətində oldum. Əsər kitab şəklində çapdan çıxdı. Romanı həyəcansız oxumaq mümkün deyildir.

Heydər Qasımlının «Qanlı papaq» tarixi romanı Azərbaycanda feodal-bəy münasibətlərinin hökm sürdüyü və onun süquta uğradığı dövrləri əhatə edir. Süjet Kürqrağı kəndlərin birində cərəyan edən canlı hadisələr üzərində qurulmuşdur. Əsərin baş qəhrəmanı Alazan bəy obrazı İsmayıl Şıxlının «Dəli Kür»ündəki Cahandar ağanı yada salır.

Mən, Heydər Qasımlının bütün əsərlərini demək olar ki, oxumuşam. Onun daimi oxucusuyam. Əsərlərinin hamısından yüksək mənəvi zövq almışam.

Heydər Qasımlı yazıçı, dramaturq, jurnalist, publisist kimi ömrünün və yaradıcılığının kamillik, yetkinlik, barlı-bəhrəli dövrünü yaşayır. O, tükənməz enerji, coşğun həvəslə, cavanlıq eşqi ilə yazıb-yaradır. Yazdıqca ruhlanır, yeni-yeni bir-birindən gözəl əsərlər yazmaq arzusuna düşür.

***Hörmətli yazıçımızın bu yaxınlarda anadan olmasının 65 ili tamam olmuşdur. Yenicə çap olunmuş «Qanlı papaq» romanı və anadan olmasının 65 illik yubileyi münasibətilə yaxın dostumuz və sevimli ədibimiz Heydər İftar oğlu Qasımlını çoxsaylı oxucular adından ürəkdən təbrik edir, ona uzun ömür, cansağlığı, ailə səadəti və xoşbəxtliyi, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq!***

**K.ABBASOĞLU**